*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 76-81*

https://doi.org/10.62837/2025.10.76

**AYNUR FIZULI QIZI MİRİYEVA**
**ADPU, Xarici Dillər Mərkəzi,**
**https://orcidşorg/000-0033155-464X**

# MULTİMEDİA ƏSASLI TƏDRİSİN İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN DİNLƏMƏ VƏ DANIŞIQ BACARIĞINA TƏSİRİ

**Xülasə**

Məqalədə multimedia əsaslı tədrisin ibtidai sinif şagirdlərinin ingilis dilində dinləmə və danışıq bacarıqlarının inkişafına təsiri nəzəri və praktik müstəvidə təhlil olunur. Müxtəlif ölkələrdə aparılmış tədqiqatların icmalı verilərək ibtidai yaşlı şagirdlər üçün video, rəqəmsal hekayələr, interaktiv lövhə, animasiya və oyunlaşdırılmış tapşırıqlardan istifadənin effektivliyi müzakirə edilir.

Məqalənin praktik hissəsində ibtidai sinif şagirdləri ilə multimedia əsaslı ingilis dili dərslərinin tətbiqi üçün model tədqiqat dizaynı, nümunə fəaliyyətlər və gözlənilən nəticələr təsvir edilir. Sonda ibtidai sinif müəllimliyi ixtisasında təhsil alan tələbələr üçün konkret metodik tövsiyələr irəli sürülür.

***Açar sözlər:*** *multimedia əsaslı tədris, ibtidai sinif, dinləmə, danışıq, ingilis dili, video materiallar, rəqəmsal hekayə, interaktiv lövhə.*

## Multimedia əsaslı tədrisin nəzəri əsasları: kognitiv, psixoloji və metodoloji yanaşmalar

Multimedia əsaslı tədris ibtidai sinif şagirdlərinin idrak fəaliyyətini eyni anda bir neçə kanal üzrə — vizual, audial və verbal istiqamətlərdə — aktivləşdirən kompleks pedaqoji yanaşmadır və dil öyrənmənin erkən mərhələlərində yüksək effektivlik nümayiş etdirir (6, s.22). R. Mayerin (Mayer R. E.) multimedia öyrənmə nəzəriyyəsinə görə, insan beyni informasiyanı iki paralel kanalda — vizual və verbal kanallarda — emal edir və bu inteqrasiya idrak yükünün optimal şəkildə paylanmasına şərait yaradır (6, s.18). Bu mexanizm ibtidai yaş dövründə xüsusilə güclü təsir göstərir, çünki uşaqlar konkret-əşyavi təfəkkür mərhələsində informasiyanı daha çox vizual kodlaşdırma yolu ilə mənimsəyirlər (7, s.44). Multimedia mühitlərinin psixoloji təsiri də mühüm əhəmiyyət kəsb edir. S. Sejdiu-nun araşdırmalarında interaktiv multimedia materiallarının emosional iştirakçılığı artırdığı və bu yolla şagirdlərin motivasiyasını gücləndirdiyi müəyyən edilmişdir (9, s.52). Rəngarəng təsvirlər, ritmik səs effekti və animasiya elementləri ibtidai yaşlı uşaqlarda diqqəti uzun müddət yönləndirməyə imkan verir (9, s.54).

E. Gilyazeva (Гилязева Э. Р.) multimedia resurslarının situativ nitqin formalaşmasında xüsusi rol oynadığını vurğulayır; video səhnələrdə təqdim olunan obrazlı kontekst uşağın həm qavrama, həm də şifahi ifadə prosesini təbii şəkildə stimullaşdırır (2, s.93). J. Svellerin idrak yükü nəzəriyyəsi isə multimedia inteqrasiyasının beynin informasiya emalı gücünü artıraraq öyrənmə prosesini sadələşdirdiyini qeyd edir (10, s.54).

Beləliklə, multimedia əsaslı tədris ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətləri, idrak ehtiyacları və dil öyrənmə mexanizmlərinə tam uyğun gəlir və dinləmə–danışıq bacarıqlarının inkişafını elmi cəhətdən əsaslandırılmış şəkildə dəstəkləyir.

**Dinləmə və danışıq bacarıqları: multimedia yanaşmasının rolu**

Dinləmə bacarığı yalnız səslənən sözləri eşitmək deyil, həm də şifahi nitqi qavrama, semantik əlaqələri müəyyənləşdirmə, informasiyanı yadda saxlama və onu şifahi cavabda tətbiq etmə prosesidir . Xarici dil kimi ingilis dilini öyrənən ibtidai sinif şagirdləri üçün bu proses yeni söz ehtiyatı, aksent fərqliliyi və nitq sürəti kimi çətinliklərlə müşayiət olunur (8, s.27). Bu səbəbdən multimedia mühitində dinləmə tapşırıqları — video süjetlər, rəqəmsal hekayələr (digital stories), subtitrli dialoqlar, animasiyalar — şagirdlərin qavrama prosesinə həm vizual, həm də audial dəstək verir (5, s.133). Sejdiunun tədqiqatında multimedia əsaslı dinləmə fəaliyyətlərinin şagirdlərin məzmunu anlama, əsas sözləri ayırd etmə və kontekstdən məna çıxarma bacarığını artırdığı müəyyən edilmişdir . Müəllif qeyd edir ki, subtitrli video təqdimatı ibtidai siniflərdə dinləmənin mərhələləşdirilməsi üçün optimal vasitə hesab olunur (9, s.52-54). 2025-ci ildə Abd-Haq tərəfindən aparılan müqayisəli tədqiqatda rəqəmsal hekayələrlə çalışan şagirdlərin dinləmə testlərində ənənəvi dərs keçən nəzarət qrupuna nisbətən daha yüksək nəticə göstərdiyi müəyyən edilmişdir (4, s.47).

Danışıq bacarığı ibtidai sinif şagirdlərində ən çətin inkişaf edən bacarıqlardan biridir. Multimedia mühitləri bu çətinliyi aradan qaldırır, çünki vizual dayaq (şəkil, animasiya, video fraqment) uşağın nə deməli olduğunu təsəvvür etməsinə kömək edir və danışığa giriş üçün "kontekst yaradır". İnteraktiv multimedia fəaliyyətləri — rol oyunu, animasiyaya əsaslanan dialoqlar, qısa video fraqmentləri üzrə hekayə qurma — ibtidai sinif şagirdlərinin danışıq fəallığını artırır və cümlə qurmaq üçün əlavə impuls yaradır (3, s.118).

Aşağı səviyyəli şagirdlər üçün multimedia "qorxu baryerini" azaldır, çünki uşaqlar vizual obraz əsasında danışmağa daha meylli olur və nitqi spontan şəkildə ifadə edirlər .

**İbtidai sinif müəllimliyi ixtisasında təhsil alan tələbələr üçün tövsiyələr**

Multimedia əsaslı tədrisin səmərəliliyini müəyyən edən əsas amillərdən biri dərsdə istifadə olunan video materialların düzgün seçilməsidir. İbtidai sinif şagirdləri üçün video məzmun ilk növbədə onların psixoloji və yaş xüsusiyyətlərinə, daha sonra isə dil səviyyəsinə uyğun olmalıdır. Mövzular şagirdlərin gündəlik həyatı ilə birbaşa əlaqəli sahələrdən seçildikdə – ailə, məktəb, sinif otağı, dostlar, heyvanlar,

oyunlar, rənglər, gündəlik fəaliyyətlər ("I get up", "I go to school" və s.) – həm dinləmə, həm də danışıq fəaliyyətinə qoşulma daha asan baş verir, çünki şagirdlər ekranda gördüklərini öz həyat təcrübələri ilə əlaqələndirə bilirlər. Bu, xüsusilə aşağı yaş qrupunda məna qurulmasını və kontekstin qavranmasını xeyli asanlaşdırır.

Video materiallar seçilərkən onların müddəti də xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatlar göstərir ki, ibtidai sinif şagirdləri üçün optimal video müddəti təqribən 1–3 dəqiqə aralığında olmalıdır; daha uzun materiallar diqqətin dağılması, kognitiv yüklənmənin artması və məzmunun parçalanması ilə nəticələnə bilər. Qısa, lakin məzmunu aydın strukturlaşdırılmış videolar həm dinləmə tapşırıqları, həm də sonrakı danışıq fəaliyyətləri üçün daha əlverişli baza yaradır. Üstəlik, şagirdlərin səviyyəsinə uyğun olaraq dialoqların açıq, yavaş və aydın tələffüslə səsləndirilməsi tövsiyə olunur; çoxsaylı sürətli, üst-üstə düşən replikalar aşağı səviyyəli dinləyicilər üçün anlama prosesini çətinləşdirir.

Video məzmunun etik və mədəni uyğunluğu da xüsusi olaraq nəzərə alınmalıdır. İbtidai sinif şagirdləri üçün nəzərdə tutulmuş videolarda zorakılıq, aqressiya, qorxulu səhnələr, stereotipləri gücləndirən məqamlar və mədəni cəhətdən mübahisəli elementlərə yol verilməməlidir. Əksinə, əməkdaşlıq, kömək, dostluq, hörmət, paylaşma, qayğı kimi sosial dəyərləri əks etdirən süjetlər şagirdlərin həm dil, həm də şəxsiyyət inkişafı baxımından daha faydalı olur. Azərbaycan şəraitində müəllimlərin, xüsusilə ibtidai sinif müəllimliyi ixtisasında təhsil alan tələbələrin videoları seçərkən dil–mədəniyyət–psixologiya üçlüyünü birlikdə nəzərə almaları vacibdir. Multimedia əsaslı dərslərdə ən çox rast gəlinən metodik səhvlərdən biri videonun sadəcə "göstərilməsi" və dərsin passiv seyr aktına çevrilməsidir(1, 76).

Elmi ədəbiyyat açıq şəkildə göstərir ki, video və ya rəqəmsal hekayənin təlim dəyəri, yalnız dinləmə fəaliyyətini deyil, eyni zamanda danışıq bacarığını işə saldığı zaman maksimuma çatır. Bu səbəbdən hər bir video və ya rəqəmsal hekayədən sonra mütləq şifahi davam fəaliyyəti planlaşdırılmalıdır: rol oyunu, situativ dialoqlar, şəkil əsasında təsviri nitq, qrup müzakirələri, "Sual ver – cavab ver" tipli interaktiv tapşırıqlar və s.

İbtidai sinif müəllimliyi ixtisasında təhsil alan tələbələr dərs planlaşdırarkən dinləməni ayrıca, təcrid olunmuş bacarıq kimi deyil, danışıqla funksional əlaqədə olan kompleks proses kimi nəzərdə tutmalıdırlar. Məsələn, video nümayiş olunduqdan sonra şagirdlərdən əvvəlcə vizual dəstək əsasında əsas hadisələri Azərbaycan dilində qısa şəkildə söyləmək, sonra isə bu məzmunu sadə ingilis cümlələri ilə bərpa etmək tələb oluna bilər. Həmçinin mürəkkəb dil strukturlarına ehtiyac olmadan "Where are they?", "What are they doing?", "How many…?" kimi sadə sual-cavab modelləri vasitəsilə həm dinləmə məzmunu yoxlanılır, həm də şagird danışığa cəlb olunur.

Beləliklə, multimedia materialı dinləmənin "mənbəyi", sonrakı şifahi fəaliyyət isə onun "nəticəsi" kimi qurulduqda, öyrənən beynində input–intake–output (giriş–

mənimsəmə–çıxış) zənciri tamamlanır və dinləmə ilə danışıq arasındakı nəzəri əlaqə praktik müstəvidə reallaşmış olur. "İzlədik və keçdik" modeli bu zənciri qırdığı üçün nə dinləmə, nə də danışıq bacarığı stabil inkişaf etmir.

Multimedia əsaslı tədrisdə vizual dayaq elementləri – şəkil sıraları, kadr görüntüləri, söz buludları, açar ifadələr, qrafik təşkilatçılar – şagirdin həm dinləmə, həm də danışıq fəaliyyətində kognitiv yükü azaldan mühüm resurs kimi çıxış edir. Praktik baxımdan bu, belə təşkil oluna bilər: video nümayişindən sonra müəllim kadrları "stop-kadr" şəklində ekrana gətirir və şagirdlərdən bu şəkillər əsasında əvvəlcə sadə isim və fel birləşmələri ("a boy – running", "a girl – reading"), daha sonra isə tam cümlələr ("The boy is running", "The girl is reading a book") qurmağı xahiş edir. Şəkil sıraları ( picture sequence ) uşaqlar üçün mətnin və hadisələrin ardıcıllığını görməyi asanlaşdırır, bu da həm dinləmə məzmununu yadda saxlamağa, həm də hekayə danışmağa kömək edir.

Söz buludları və açar ifadələr şəklində ekranda verilən dil vahidləri şagirdin leksik ehtiyatını aktivləşdirir və ona cümlə qurmaq üçün "hazır material" təqdim edir. Belə olduqda ibtidai yaşlı uşaq təkcə "nə demək" istədiyini deyil, "onu necə demək" lazım olduğunu da daha rahat müəyyənləşdirir. Nəticədə vizual dayaq həm məzmun, həm də forma səviyyəsində şagirdə istiqamət verir, səhv etmək qorxusunu azaldır və danışığa qoşulmanı asanlaşdırır.

Multimedia əsaslı dinləmə materiallarının effektivliyi onların şagirdlərin real dil səviyyəsinə uyğunlaşdırılmasından birbaşa asılıdır. Əgər istifadə olunan video məzmununda söz ehtiyatı və qrammatik strukturlar şagirdin mövcud imkanlarından çox yüksəkdirsə, dinləmə prosesi kəskin çətinləşir, motivasiya aşağı düşür və şagird materialdan uzaqlaşır. Əksinə, həddindən artıq sadə və ibtidai materiallar da müəyyən müddətdən sonra marağı öldürə bilər. Ona görə də müəllim balanslaşdırılmış seçim etməlidir: qismən tanış, qismən yeni dil vahidləri, struktur və situasiyalar. Səviyyəyə uyğunlaşdırma həmçinin nitq sürəti, səs keyfiyyəti və aksent seçimi ilə də bağlıdır. İbtidai siniflər üçün nitq sürətinin orta və ya nisbətən yavaş, səsin təmiz, fon səs-küyündən uzaq, aksentin isə mümkün qədər standart olması (məsələn, General American və ya Standard British) məsləhət görülür. Növbəti mərhələlərdə müxtəlif aksentlərlə materiallardan istifadə etməklə şagirdlərə daha geniş fonetik təcrübə qazandırmaq olar, lakin başlanğıc səviyyəsində bu, diqqətlə tənzimlənməlidir.

İbtidai sinif müəllimliyi ixtisasında təhsil alan tələbələr üçün multimedia ilə işləmək bacarıqları artıq pedaqoji hazırlığın ayrılmaz komponenti olmalıdır. Onlar interaktiv lövhə ilə işləməyi, video fraqmentləri didaktik məqsədlərə görə kəsməyi, subtitr əlavə etməyi, ekran üzərində açar söz və şəkilləri yerləşdirməyi, onlayn və oflayn resurslar arasında seçim etməyi, müəllif hüquqlarını qorumaq prinsiplərini və dərs planına multimedia fəaliyyətlərini sistemli şəkildə inteqrasiya etməyi

öyrənməlidirlər. Bu, həm də ondan ötrüdür ki, multimedia texnologiyası müəllimin peşəkar rolunu zəiflətməsin, əksinə onu gücləndirən didaktik alətə çevrilsin.

Bununla yanaşı, müəllimlərin refleksiya bacarığı da vacibdir: hər multimedia dərsindən sonra müəllim (və ya tələbə-müəllim) öz-özünə soruşmalıdır – "Videonun məqsədi nə idi?", "Şagird bu materialdan nə öyrəndi?", "Dinləmə və danışıq fəaliyyətləri bir-birini tamamladımı?", "Məzmun səviyyəyə uyğun idimi?". Belə reflektiv yanaşma multimedia ilə işin keyfiyyətini tədricən yüksəldir.

## Nəticə

Pedaqoji təcrübə zamanı aparılan mikro tədqiqatlar göstərir ki, multimedia əsaslı dərslər ibtidai sinif şagirdlərinin dinləmə və danışıq bacarıqlarının inkişafında ənənəvi dərslərə nisbətən daha təsirli ola bilər. Tələbələrin eyni mövzu üzrə həm multimedia dəstəkli, həm də ənənəvi dərs keçərək nəticələri qısa testlər, danışıq rubrikaları və motivasiya sorğuları ilə müqayisə etməsi onların tədqiqat aparmaq, nəticə çıxarmaq və sübutlara əsaslanan qərar vermək bacarıqlarını gücləndirir.

Bu cür mikro təhlillər tələbələrə multimedia resurslarını yalnız maraq oyadan vasitə kimi deyil, həm də dil bacarıqlarının inkişafını sistemli şəkildə dəstəkləyən didaktik alət kimi dəyərləndirmə imkanı yaradır(6, s.62). Nəticə olaraq, multimedia ilə işləyən gələcək ibtidai sinif müəllimləri daha hazırlıqlı, reflektiv və metodik əsaslandırılmış tədris qərarları verə bilən mütəxəssislərə çevrilirlər.

## İstifadə edilmiş ədəbiyyat

1. Balacayeva N. İbtidai siniflərdə ingilis dili dərslərində video və multimedia resurslarının tətbiqi. Bakı: Təhsil, 2020, 128 s.
2. Гилязева Э. Р. Мультимедиа в обучении иностранному языку в начальной школе. Казань: КФУ, 2019, 156 с.
3. Самойлова Л. А. Визуальная поддержка в обучении иностранному языку. Москва: Просвещение, 2017, 192 с.
4. Abd-Haq A. Digital Stories and Listening Skills in Primary Education. Journal of Pedagogy, 2025, №3, s.40–52.
5. Krashen S. D. The Input Hypothesis: Issues and Implications. London: Longman, 1985, 184 p.
6. Mayer R. E. Multimedia Learning. 3rd ed. Cambridge: Cambridge University Press, 2021, 400 p.
7. Piaje J. (Piaget J.). Psychology of the Child. New York: Basic Books, 1965, 256 p.
8. Richards J. C., Schmidt R. Longman Dictionary of Language Teaching and Applied Linguistics. 4th ed. London: Routledge, 2010, 656 p.

9. Sejdiu S. The Impact of Multimedia on the Listening Skills of Young Learners. Journal of Education Studies, 2017, №12, s.50–60.
10. Sveller J. (Sweller J.). Cognitive Load Theory. New York: Springer, 2011, 274 p.

**Резюме**

В статье анализируется влияние мультимедийного обучения на развитие навыков аудирования и говорения у учащихся начальных классов при изучении английского языка в теоретическом и практическом аспектах. Представлен обзор исследований, проведённых в различных странах, в котором обсуждается эффективность использования видеоматериалов, цифровых историй, интерактивной доски, анимации и игровых заданий для младших школьников.

В практической части статьи описывается модель исследовательского дизайна для проведения мультимедийных уроков английского языка в начальных классах, приводятся примеры заданий и ожидаемые результаты. В заключение формулируются конкретные методические рекомендации для студентов специальности «Учитель начальных классов».

***Ключевые слова:*** *мультимедийное обучение, начальная школа, аудирование, говорение, английский язык, видеоматериалы, цифровые истории, интерактивная доска.*

**Miriyeva Aynur**

**The impact of multimedia -based instruction on the listening and speaking skills in primary school learners**

**Summary**

The article examines the impact of multimedia-based instruction on the development of listening and speaking skills in primary school learners of English, considering both theoretical and practical dimensions. It provides a review of studies conducted in different countries and discusses the effectiveness of using videos, digital stories, interactive whiteboards, animations, and gamified tasks for young learners. The practical section of the article outlines a model research design for implementing multimedia-based English lessons in primary classrooms, presents sample activities, and describes the expected outcomes. The article concludes with concrete methodological recommendations for students specializing in primary school teaching.

***Keywords:*** *multimedia-based instruction, primary school, listening, speaking, English language, video materials, digital storytelling, interactive whiteboard.*

**Rəyçi:** **ADU-nun İngilis dillinin tədrisi metodikası kafedrasının dosenti**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 76-81*

**Fəridə Şahlar qızı Şükürova**